

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

İyun 2019

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

# “BU GÜN AZƏRBAYCAN MÜSTƏQİLLİK YOLUNDA İNAMLA İRƏLİLƏYİR VƏ ÖLKƏ QARŞISINDA DURAN PROBLEMLƏR HƏLL EDİLİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 27 may tarixində
Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilən
rəsmi qəbuldakı nitqindən



“Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur. Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var....

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixrac 18 faiz artmışdır — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

Azexport.az portalına 2019-cu ilin yanvar-may aylarında 261,8 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

Azexport.az portalı İsrailə biyan ixrac edəcəkdir — səh. 21

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi ixracatçıların xidmətindədir — səh. 22

Azərbaycan məhsullarının ixrac coğrafiyası genişlənir — səh. 25

Dövlət Gömrük Komitəsi təchizat zənciri platforması olan TradeLens-ə qoşulmuşdur — səh. 26

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **787 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **119 milyon** ABŞ dolları və ya **18%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-may ayları ərzində ölkəmizin ixracı **8,6 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **1,3 milyard** ABŞ dolları və ya **17 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə isə **787 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-may ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **119 milyon** ABŞ dolları və ya **18 faiz** artmışdır. Cari ilin ilk beş ayı ərzində Rusiyaya **261,2 milyon**, Türkiyəyə **180,8 milyon**, Gürcüstana **76,9 milyon**, İsveçrəyə **52,9 milyon** və İtaliyaya **28,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilmişdir.

2019-cu ilin ilk beş ayında 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Rusiyaya qeyri-neft ixracı **17 faiz**, Türkiyəyə **17,2 faiz**, Gürcüstana **16,7 faiz** və İtaliyaya **2,3 dəfə** artmışdır.

Cari ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına tomat (104,2 milyon ABŞ dolları) liderlik etmişdir. Bu siyahıda mahlıc (68,1 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (62 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin təhlil edilən müddətdə elektrik enerjisi, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti), kartof (təzə) da qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin ilk beş ayı ərzində meyvə-tərəvəz ixracı **241 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **89,9 milyon**, pambıq lifi ixracı **68,8 milyon**, elektrik enerjisinin ixracı **51,9 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **37 milyon**, kimya sənayesi məhsullarının ixracı **30,2 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **25 milyon**, pambıq ipliyi ixracı **12,3 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **11,8 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-may aylarında pambıq lifinin ixracı **2,7 dəfə**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **93 faiz**, pambıq ipliyinin ixracı **62 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **52 faiz**, meyvə-tərəvəzin ixracı **27 faiz**, kimya sənayesi məhsullarının ixracı **27 faiz** artmışdır.

2019-cu ilin may ayında isə qeyri-neft sektoru üzrə ixrac **204 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin may ayı ilə müqayisədə 2019-cu ilin may ayında qeyri-neft sektoru üzrə ixrac **22 milyon** ABŞ dolları və ya **12 faiz** artmışdır. Cari ilin may ayında qeyri-neft sektoruna aid ən çox mal Rusiyaya (96,3 milyon ABŞ dolları), Türkiyəyə (33 milyon ABŞ dolları), Gürcüstana (14,6 milyon ABŞ dolları), İsveçrəyə (8,2 milyon ABŞ dolları) və İtaliyaya (6,6 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin may ayında qeyri-neft sektoru üzrə ixracda tomat (54,6 milyon ABŞ dolları) birinci, kartof (20,2 milyon ABŞ dolları) ikinci, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (12,9 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Eyni zamanda 2019-cu ilin may ayında daranmaya məruz qalmamış pambıq lifi, qabığı təmizlənmiş meşə fındığı, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin yanvar-may ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

## 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **MAY AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI İYUN



2019
İXRAC İCMALI
İYUN

# 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat | 104,2 | 96,9 |
| Mahlıc | 68,1 | 25,5 |
| Fındıq ləpəsi | 62 | 34,1 |
| Elektrik enerjisi | 51,9 | 53,3 |
| Qızıl | 51 | 48,4 |
| İlkin formalı polietilen | 35,4 | 42,6 |
| İlkin formalı polipropilen | 33,6 | 0,4 |
| Metanol (metil spirti) | 23,9 | 2,6 |
| Kartof | 22,7 | 19,9 |
| Digər | 333,9 | 343,8 |

# 2019-CU İLİN MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2019 | 2018 |
| --- | --- | --- |
| Tomat | 54,6 | 54,3 |
| Kartof | 20,2 | 16,3 |
| İlkin formalı digər maddələr | 12,9 | 4,9 |
| Mahlic | 10,2 | 5,3 |
| Fındıq ləpəsi | 8,3 | 3,8 |
| Qızıl | 7,9 | 14,1 |
| Elektrik enerjisi | 6,8 | 6 |
| İlkin formalı polietilen | 6,6 | 7,7 |
| İlkin formalı polipropilen | 5 | 0 |
| Digər | 71,5 | 69,7 |












# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI İYUN

## 2018

- Yanvar — Qızıl **17,2**
- Fevral — Elektrik enerjisi **17,7**
- Mart — Elektrik enerjisi **13,6**
- Aprel — Pomidor **18,5**
- May — Pomidor **54,3**

## 2019

- Yanvar — Xurma **12,6**
- Fevral — Elektrik enerjisi **19,4**
- Mart — Fındıq ləpəsi **13,7**
- Aprel — Pomidor **24,2**
- May — Pomidor **54,6**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-may ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, “Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Caspian enerji-2020" MMC, "P-Aqro" MMC, "Food Export Şəmkir" MMC, “Sun Food" MMC, "Baku Steel Company" MMC, "Nine Climate" MMC, "Aqrovest" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ASC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “CTS-Agro" MMC, Dövlət Material Ehtiyatlari Agentliyi, "Azəripək" MMC, "Bakı Neft Maşınqayırma Zavodu" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



2019 İXRAC İCMALI İYUN

# 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2019
İXRAC İCMALI
İYUN

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| ARDNŞ-nin "MARKETİNQ və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 87,3 milyon | 84,9 milyon |
| "AZƏRENERJİ" ASC | 51,8 milyon | 52,9 milyon |
| "AZƏRALÜMİNİUM" MMC | 31,3 milyon | 0 |
| "AZERGOLD" QSC | 17,9 milyon | 11,8 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 10,1 milyon | 0 |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 7,3 milyon | 7,3 milyon |
| "CTS-AGRO" MMC | 4,9 milyon | 9,1 milyon |
| DÖVLƏT MATERİAL EHTİYATLARI AGENTLİYİ | 555 min | 0 |
| "AZƏRİPƏK" MMC | 438 min | 0 |
| "BAKI NEFT MAŞINQAYIRMA ZAVODU" ASC | 377 min | 161 min |



# 2019-CU İLİN YANVAR-MAY AYLARINDA "AZƏRKOSMOS" ASC 16,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2019 İXRAC İCMALI İYUN



2019-cu ilin yanvar-may aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **18 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir.

2019-cu ilin may ayında isə "Azərkosmos" ASC dünyanın 16 ölkəsinə **2,3 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-may aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**








## 2019-cu ilin **YANVAR-MAY AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **475,7 milyon** manatlıq əməliyyat aparmışlar

## Cari ilin **MAY AYINDA** ölkəmizə gələn xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ İLƏ** apardıqları əməliyyatların dəyəri **100,9 milyon** manat təşkil etmişdir

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2019-cu ilin yanvar-may aylarında Azərbaycana dünyanın 180 ölkəsindən 1094,8 min və ya 2018-ci ilin yanvar-may ayları ilə müqayisədə 3,7 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 28,5 faizi Rusiya Federasiyası, 26 faizi Gürcüstan, 10,9 faizi Türkiyə, 7,7 faizi İran, 3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, hər birindən 1,6 faiz olmaqla Böyük Britaniya və Türkmənistan, hər birindən 1,2 faiz olmaqla Pakistan və İraq, 14,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-may aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (1,9 dəfə), Misir (1,8 dəfə), Çin (1,8 dəfə), Hindistan (1,7 dəfə), Səudiyyə Ərəbistanı (1,7 dəfə), Böyük Britaniya (42,3 faiz), Cənubi Koreya (31,4 faiz), Yaponiya (30,1 faiz), Almaniya (28,0 faiz), Kanada (27,7 faiz), Polşa (23,4 faiz) və Gürcüstan (22,7 faiz) vətəndaşları arasında qeydə alınmışdır. 2019-cu ilin yanvar-may aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 27,8 faiz artaraq 54,4 min nəfər olmuşdur.

2019-cu ilin yanvar-may ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 475,7 milyon manat olmuşdur.

Cari ilin may ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri isə 100,9 milyon manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**



## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**

**Cəmi - 423,6**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel -**109,7**
May -**107,3**

**Cəmi - 513,7**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
Aprel - **103,2**
May -**100,9**

**Cəmi - 475,7**

3

# 2019-CU İLİN YANVAR-MAY AYLARINDA AZEXPORT.AZ PORTALINA 261,8 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

**ÖTƏN ILIN MÜVAFIQ DÖVRÜ ILƏ MÜQAYISƏDƏ** portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **4,6 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-may aylarında Azexport.az portalına **261,8 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ildə ixrac sifarişləri **4,6 faiz** artmışdır. Cari ilin may ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə **32,5 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin may ayı ilə müqayisədə **17,3 faizlik** artım qeydə alınmışdır. 2019-cu ilin may ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya(12,6%), Türkiyə (7,4%), İngiltərə (5,9%), ABŞ (5,9%) və Hindistan (5,9%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin may ayında ən çox ixrac sifarişi pambıq və pambıq məhsulları, biyan, tütün, toyuq əti və yumurtası, kartof, soğan, mineral su, mühərrik yağı, qənnadı məhsulu, nar şirəsi, tibbi tənzif, şərab, çay, kosmetik vasitə, tikinti materialı, mebel dəsti, alma, gül, təzə və qurudulmuş pomidor və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 may tarixinə kimi (29 ay ərzində) Azexport.az portalına dünyanın **130 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 250,9 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**
Aprel - **50,9 milyon**
May - **32,5 milyon**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il |
|---|---|---|
| **CƏMİ - 475 milyon** | **CƏMİ - 514,1 milyon** | **CƏMİ - 261,8 milyon** |



Son **29 ay** ərzindəki sifarişlərin cəmi - **1 250,9 milyon**

# 2019-CU İLİN **MAY AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI İYUN

Pambıq və pambıq məhsulları



Kartof



Tütün



Toyuq əti və yumurtası



Biyan



Soğan



Mineral su



Mühərrik yağı



Qənnadı məhsulu



Nar şirəsi



Tibbi tənzif



Şərab



Çay



Kosmetik vasitə



Tikinti materialı



# 2019-CU İLİN **YANVAR-MAY AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ






4

# AZEXPORT.AZ PORTALI İSRAİLƏ BİYAN İXRAC EDƏCƏKDİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı daha bir Azərbaycan məhsulunun xarici bazarlara ixracı istiqamətində uğura imza atmışdır.

Belə ki, Azexport.az portalının dəvəti ilə İsrailin ən böyük biyan və biyan ekstraktı idxalçısı olan və bu sahədə dünya üzrə ilk onluqda yerləşən "F&C Licorice Group" şirkətinin nümayəndələri Bakıda səfərdə olmuşlar. Qonaqların İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Azərbaycandan biyan ixrac ilə məşğul olan şirkətlərin nümayəndələri ilə görüşü təşkil edilmişdir.

Azexport.az portalının meneceri Ayxan Qədəşov bildirmişdir ki, görüşdə Azərbaycandan növbəti mövsüm illik müqavilə üzrə 2,5-3 min ton yüksək keyfiyyətli biyan məhsulunun İsrailə ixrac olunması haqqında ilkin razılıq əldə olunmuşdur. Bununla yanaşı İsrail nümayəndələrinə Azərbaycanın münbit investisiya mühiti barədə məlumatlar, eləcə də, gələcəkdə birgə əməkdaşlıq çərçivəsində biyan qəbulu  və emalı məntəqələrinin yaradılması üçün təkliflər təqdim edilmişdir.

Qeyd edək ki, Azexport.az portalı texniki və keyfiyyət göstəricilərinə yüksək olan (oxratoksin A göstəricisi 20-dən aşağı olan) biyan məhsulunun istehsalı və ixracı ilə məşğul olan sahibkarlara müraciət edərək bildirir ki, portalın nümayəndələri onları "F&C Licorice Group"  və digər aidiyyəti beynəlxalq şirkətlərin əlaqələndirə bilərlər.






# 5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ İXRACATÇILARIN XİDMƏTİNDƏDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən 2019-cu ilin iyun ayı ərzində sahibkarlara ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Food Export Şəmkir" MMC, "AzerGold" QSC, "Azərtütün" MMC, "Atena" MMC, "Gilan Tekstil Park" MMC kimi iri şirkətlərlə yanaşı kiçik sahibkarlarda istifadə etmişdirlər. Nəticədə 2019-cu ilin iyun ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **10,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin ilk yarısında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi **59,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı reallaşdırılmışdır.

Cari ilin iyun ayı ərzində ixracatçılara əsasən pomidor, tütün, pendir, nar şirəsi, nar tumu, kolbasa, dondurulmuş balıq əti, qiymətli metal külçələr, pambıq iplik tullantısı, ayaqqabı altlıqları, gilas, çiyələk, polad armatur yayması, qara metal boru və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir.

Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Ukrayna, Almaniya, Bəhreyn, Türkiyə, İsveçrə, Çin, Çexiya daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri 150 milyon ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN **YANVAR- İYUN AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)**






# 2019-CU İLİN **İYUN AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**




RUSİYA
**37,0%**

GÜRCÜSTAN
**26,0%**

UKRAYNA
**11,0%**

İTALİYA
**4,0%**

BƏHREYN
**4,0%**




TÜRKİYƏ
**3,0%**

İSVEÇRƏ
**2,0%**

ÇİN
**2,0%**

ÇEX RESPUBLİKASI
**2,0%**

DİGƏR
**9, 0%**

# 6

# AZƏRBAYCAN MƏHSULLARININ İXRAC COĞRAFİYASI GENİŞLƏNİR

## İsveçrənin SURİX və BERN ŞƏHƏRLƏRİNƏ və Rusiyanın YEKATERİNBURQ ŞƏHƏRİNƏ ixrac missiyası təşkil olunacaqdır

Bakı Biznes Mərkəzində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun fəaliyyətinə, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində görülən işlərə və qarşıda duran vəzifələrə dair mətbuat konfransı keçirilmişdir. İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, yerli istehsalın stimullaşdırılması, rəqabətədavamlı, ixracyönümlü qeyri-neft məhsullarının istehsalı, ixracın strukturunun şaxələndirilməsi, istehsalda və ixracda özəl sektorun payının artırılması məqsədi ilə görülən işlər barədə məlumat vermişdir. Bildirmişdir ki, bu ilin 5 ayı ərzində xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarların sayı 74% artaraq 18,4 minə çatmışdır. O, qeyd etmişdir ki, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir, xarici ölkələrə ardıcıl olaraq ixrac missiyaları təşkil edilir, nüfuzlu beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin iştirakı təmin olunur. Qeyri-neft ixracının stimullaşdırılması, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə indiyədək xarici ölkələrə 29 ixrac missiyası təşkil edilmiş və Azərbaycan məhsulları indiyədək 24 beynəlxalq sərgidə nümayiş olunmuşdur. Bu ilin sonunadək Qazaxıstanın Nur-Sultan şəhərində ticarət evinin, Rusiyada və Çində şərab evlərinin açılması nəzərdə tutulur.

Hazırda Rusiyada "Azərbaycan nemətləri" mağazalar şəbəkəsinin yaradılması layihəsi həyata keçirilir. Layihə çərçivəsində ilk mağaza bu ilin martında Moskvada açılmışdır. Rusiyanın digər şəhərlərində də bu cür mağazaların açılması planlaşdırılır.

Bildirilmişdir ki, sahibkarlara 2019-cu ilin ötən dövrü ərzində bu mexanizm çərçivəsində 5 milyon manatdan çox ixrac təşviqi, indiyədək isə 13 milyon manatdan artıq ixrac təşviqi ödənilmişdir.

Məlumat verilmişdir ki, 2019-cu ilin iyun və iyul aylarında isə İsveçrənin Surix və Bern şəhərlərinə və Rusiyanın Yekaterinburq şəhərinə ixrac missiyası təşkil olunacaqdır.

# 7

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ TƏCHİZAT ZƏNCİRİ PLATFORMASI OLAN TRADELENS-Ə QOŞULMUŞDUR

Bununla **İDXAL və İXRAC ƏMƏLİYYATLARININ səmərəliliyinin artırılması və təhlükəsizliyinin daha da YÜKSƏK SƏVİYYƏDƏ** təmin edilməsi gözlənilir

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi blokçeyn texnologiyasına əsaslanan təchizat zənciri platforması olan TradeLens-ə qoşulmuşdur. Bununla bağlı Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev bildirmişdir ki, Azərbaycan gömrüyü informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verir. Bu məqsədlə innovativ layihələr hazırlanaraq, həyata keçirilir. TradeLens-ə qoşulmaqla Azərbaycan Respublikasının idxal və ixrac əməliyyatlarının səmərəliliyinin artırılması və təhlükəsizliyinin daha da yüksək səviyyədə təmin edilməsi gözlənilir.

TradeLens-dən istifadə etməklə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi TradeLens ekosistemi üzrə hərəkət edən daşımalardakı konteynerlərin tərkibi və prosesdə iştirak edən tərəflər haqqında daha erkən və daha ətraflı məlumat əldə edəcəkdir. Bu isə ölkə daxilində və xaricində həyata keçirilən daşımalar üzrə risklərin daha səmərəli şəkildə qiymətləndirilməsinə, gömrük rəsmiləşdirməsi prosesinin daha sürətli icra edilməsinə, ticarətlə məşğul olanlar üçün yüksək xərc tələb edən öhdəliklərin yüngülləşdirilməsinə və region üzrə ümumilikdə ticarət prosesinin sadələşdirilməsinə imkan verir.

Qeyd edək ki, TradeLens platforması Maersk və IBM tərəfindən birgə işlənərək hazırlanmışdır. TradeLens blokçeyn texnologiyası ilə möhkəmləndirilmiş, beynəlxalq daşıma sektoru üzrə böyük şirkətlər tərəfindən dəstəklənən açıq və neytral sənaye platformasıdır. Platforma qlobal təchizat zəncirində daha uğurlu əməkdaşlıqlar qurulması və etibarın artırılması məqsədilə məlumatların səmərəli, şəffaf və təhlükəsiz mübadiləsini təmin edir.

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






İYUN/2019



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.


iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


